

**Fuad Cəfərli**

# Bakıda gecə olmaq...

Bakıda gecə olmaq
zülmdü, işgəncədi.
Bakıda gecə olmaq
vüsaldan sonra,
ən böyük dərddi.

Sanırlar ki, gecələr
göz yummaqdı,
röyada uçmaq,
kabusdan sonra oyanmaqdı.
...və ya qadınısız bir yataqdı,
Bakıda gecə olmaq.

Əslində...
görünməsələr də
qırmızıya boyanıb
gördüyündən utanmaqdı.
Yiyəsiz ipə sahib çıxmaq,
azacıq çabalamaq,
sonra dayanmaqdı
Bakıda gecə olmaq!..

Daşmağa həsrət qalmaqdı,
son damlanı axtarmaqdı.
Arzuya çatmamaqdı
Bakıda gecə olmaq.

Yanından keçən
sözü acılamaq,
məsum misraları
küçənin qucağına atmaqdı.
Şairlər üçün gəlib
şeirsizliklə ovunmaqdı.
Səhər çiyninə toxunanda
kor-peşman qayıtmaqdı
Bakıda gecə olmaq...

Türküstan.- 2022.- 1-7 noyabr.- S.15.